# Əsaslı təmirdən sonra

## korlar kitabxanasının açılışı

*Mədəniyyət Nazirliyinin vəsaiti hesabına əsaslı təmir olunmuş Respublika Korlar Kitabxanasının 6 iyul 2005-ci il tarixində açılış mərasimi keçirilmişdir.*

Tədbiri giriş sözü ilə Mədəniyyət naziri cənab Polad Bülbüloğlu açmışdır. O, öz nitqində bildirmişdir ki, gözdən əlil insanların təhsili və inkişafı üçün lazımı şəraitin yaradılması Mədəniyyət Nazirliyinin prioritet istiqamətlərindən biridir. 90-cı illərdə Azərbaycanda çox mürəkkəb proseslərin baş verdiyi, gərgin vəziyyətin yarandığı vaxtlarda Gözdən Əlillər Cəmiyyəti problemlərlə üzləşərək kitabxanaya kömək göstərilməsini xahiş etmişdi. Bu sahədə xeyli işlər görülmüş və o vaxtdan nazirliyin cəmiyyətlə işgüzar əlaqələri yaranmışdır.

Sonrakı illərdə kitabxananın tifloinformasiyaya olan tələbatını ödəmək məqsədilə nazirliklə müxtəlif təşkilatlar arasında əlaqələr yaradılmış, Rusiyadakı "Loqos" nəşriyyatından Brayl yazısı ilə kitab və digər informasiya daşıyıcıları alınmışdır. Kitabxanada "Danışan kitablar" fondu yaradılmışdır.

Çıxışının sonunda nazir gələcəkdə də bu kitabxanaya, gözdən əlil insanlara xüsusi diqqət və həssaslıqla yanaşacağını bildirdi.

Kitabxananın direktoru Şəhla Vəliyeva söhbətində nazirliyin qayğılarından danışdı. Bildirdi ki, o, Mədəniyyət nazirinin əmrilə Tatarıstan Korlar Kitabxanasının iş təcrübəsini öyrənmək məqsədilə Kazan şəhərində ezamiyyətdə olmuşdur. Digər ölkələrdə olduğu kimi, respublikamızda da gözdən əlil oxucuların yeni ədəbiyyata olan tələbatını ödəmək, onlara göstərilən xidmət işinin yaxşılaşdırılması məqsədilə Respublika Korlar Kitabxanasında müasir tələblərə cavab verən səsyazma studiyasının və tipoqrafiyanın yaradılması zəruridir. Bütün bunlar yaxın gələcəkdə həyata keçiriləcəkdir.

Korlar Kitabxanasına bu günlərdə Müqəddəs "Qurani-Kərim" hədiyyə olunmuşdur. Bu kitab Özbəkistan Ruhani İdarəsinin təşəbbüsü və Küveytin maliyyə dəstəyi ilə işıq üzü görmüşdür. Brayl şrifti ilə tərlib olunmuş Müqəddəs "Qurani-Kərim"in 10 nüsxəsi Azərbaycanın Özbəkistandakı səfirliyini vasitəsi ilə Respublika Korlar Kitabxanası üçün göndərilmişdir.

Çıxışlarda həmçinin cəmiyyətin vitse-prezidenti Bəybala İbadullayev, OXFAM-ın proqramlar üzrə məsul əməkdaşı,"Danışan kitabxana" layihəsinin təşəbbüskarı Azər Həsənov və kor və zəif görən uşaqlar üçün internat məktəbinin müəllimi Famil Hacıyev iştirak etdilər.

Tədbirdə çıxış edən Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin sədri Səmiyar Abdullayev nazirliklə cəmiyyət arasında əlaqələrin yaradılması və inkişaf etdirilməsinə görə şəxsən nazirə və nazirliyin bütün əməkdaşlarına təşəkkürünü bildirdi.

Məlumat üçün bildirək ki, Mədəniyyət Nazirliyi tərəfindən kitabxananın əsaslı təmirinə 60 milyon manatdan çox vəsait ayrılmışdır.

2004-ci ildə Respublika Korlar Kitabxanasında "Loqos" nəşriyyat-poliqrafik tiploinformasiya kompleksindən "danışan" kitabların alınması üçün 6 milyon manatdan artıq vəsait xərclənmişdir.

Sonra Aysel İsmayılovanın ifasında kitaba həsr olunmuş şerlər səsləndi.

Tədbirdə Mədəniyyət nazirinin müavini S. Məmmədəliyeva, Kitabxana işi sektorunun müdiri L. Məmmədova və b. iştirak etmişlər.

**Zemfira Mustafayeva**